UOT: 599.4

# QONAQKƏND VƏ SAMUR-DƏVƏÇİ TƏBİİ-COĞRAFİ RAYONUNUN TERİOFAUNASINDA NÖV DƏYİŞKƏNLİKLƏRİ

**İBRAHİMLİ A.Ş.**

*Bakı Dövlət Universiteti, aynur_ibrahimli87@mail.ru*

**Abstract:** The species included 6 orders of mammals (Insectivora, Chiroptera, Lagomorpha, Rodentia, Carnivora, Artiodactyla) were determined in the Gonagkand and Samur-Davachi regions. Currently, 14 species of the insects include to the teriofauna. Eight species (Sothern White-breasted Hedgehog, Long-eared Hedgehog, Radde's Shrew, Caucasian Shrew, Lesser White-toothed Shrew, Gueldenstaedt's Shrew, Bicolored Shrew, Transcaucasian Water Shrew) are noted in the research area. It is estimated that 22 species are distributed in the research area. Lesser Horse Shoe Bat, Natuzius Bat, Eastern Barbastelle, Kuhl's Pipistrelle, Serotine Bat from them, Geoffroys Bat, Particolored Bat, Common Noctule from the migratory species are met in the research area. European Hare from the order of the Rabbits and 22 species from the order of the Rodents are inhabit. 11 species belonging to 9 genera of the order Predators are met. 2 species of the Artiodactyls are inhabit.

**Key words:** *landscaft, biotor, species, insectivorous, bats, rodents*

## GİRİŞ

Qonaqkənd və Samur-Dəvəçi fiziki-coğrafi rayonlarına Qonaqkənd, Şabran və Xızının təbii və antropogen landşaftları aiddir. Samur-Dəvəçi təbii-coğrafi rayonuna 2 (orta dərəcədə parçalanmış dağarası düzənliklərin və ovalıqların çəmən və meşə-çəmən landşaftları, orta və zəif parçalanmış dağarası düzənliklərin və ovalıqların yarımsəhra landşaftları), Qonaqkənd təbii-coğrafi rayonuna 3 (kəskin parçalanmış orta dağlın enliyarpaqlı meşə və meşədən sonrakı çəmən-kolluq landşaftları, orta dərəcədə parçalanmış alçaq dağlığın enliyarpaqlı meşə landşaftları, intensiv parçalanmış alçaq və ön dağlığın arid meşə-kolluq landşaftları) landşaft aid edilir. Bu ərazilərdən Böyük Qafqazın dağ silsilələri keçir [1]. 1942-ci ilə qədər Azərbaycanın teriofaunası sistemli şəkildə öyrənilməmişdir. N.K.Vereşaqin [2] Azərbaycanda teriofaunanı sistemli şəkildə öyrənməyə başlamışdır. Azərbaycanın teriofaunası 1951, 1978, 2000 və 2004-cü illərdə dəqiqləşdirilmişdir. Karioloji, allozim, molekulyar-genetik tədqiqatların tətbiqi və vüsət alması nəticəsində 2010, 2017, 2020-ci illərdə sistematika daha da dəqiqləşləşdirilmiş, bəzi növlər respublikamızın sistematikasından çıxarılmış və əvəzində yeni növlər daxil edilmişdir. Azərbaycanda məməlilərin sayı 115 növə qədər artmışdır [3]. Növ sayının artmasına baxmayaraq, ayrı-ayrı təbii-coğrafi vilayətlərin, rayonların, landşaftların məməli növlərinin tərkibi və sayı müəyyən olunmamışdır.

Bu məqalənin məqsədi, Azərbaycanda, o cümlədən, Qonaqkənd və Samur-Dəvəçi təbii-coğrafi rayonlarında məməlilərin hər bir dəstəsində (Həşəratyeyənlər, Yarasalar, Dovşankimilər, Gəmiricilər, Yırtıcılar və Cütdırnaqlılar) növ tərkibinin və növ sayının müəyyən edilməsidir.

## NƏTİCƏ VƏ MÜZAKİRƏ

1942-ci ildən başlayaraq, müxtəlif illərdə Azərbaycanın teriofaunasının (Fauna müəyyən ərazidə toplanmış heyvan növlərinin cəmidir) növ tərkibi və növ sayı ədəbiyyat məlumatları və öz tədqiqatlarımız (quru onurğalıları laboratoriyasının əməkdaşları) nəticəsində dəqiqləşdirilmiş və cədvəl şəklində verilmişdir.

növmüxtəlifliynə malikdir. Azərbaycan faunasında 1942-ci ildə (4) 99 növ (93+6-gətirilmə), 1978-ci il məlumatına görə, 99 məməli heyvan növü [1], 1951-ci ildə 98 məməli növü (həşəratyeyənlər-12, yarasalar-24, yırtıcılar-18, kürəkayaqlılar-1, cütdırnaqlılar-8, introduksiya olunmuşlar-6), 2000-2004-cü ilin məlumatına əsasən, sistematikaya 107 (97 +10 gətirilmə), 2010-cu ildə 110, 2017-ci ildə 114, 2020-ci ildə 115 növ daxil edilmişdir [3]. 2010, 2017 və 2020-ci illərdə

tədqiq edilən dəstələrə daxil edilən növlərdən bir neçəsi introduksiya olunmuş növlərdir.

Həşəratyeyənlər dəstəsinə 1942-ci ildə 13, 1951 və 1952-ci illərdə 12 növ, 2000-2004, 2010, 2017-ci illərdə 13 növ, 2020-ci ildə 14 növ daxil edilmişdir. Analoji olaraq, növlərin say dinamikasını digər dəstələrdə də izləmək olar (cədvəl 1).

**Cədvəl 1**

**1942-2020-ci illərdə tərtib olunmuş teriofaunada növ sayının dinamikası**

| № | Fəsilələrin adı | 1942-ci il, Н.К.Верещагин Каталог зверей Азербайджана | 1951-ci il, Животный мир Азербайджана | 1978-ci il, Azərbaycan faunası (Məməlilər) | 2000-2004-cü il, Azərbaycanın heyvanlar aləmi | 2010-cu il, Рахматулина | 2017-ci il Quliyev və başqaları | 2020-ci il, Azərbaycan faunasının taksonomik spektri |
|---|---|---|---|---|---|---|---|---|
| 1 | Həşəratyeyənlər-Insectivora Bowdich, 1821 | 13 | 12 | 12 | 13 | 13 | 13 | 14 |
| 2 | Yarasalar-Chiroptera Blumenbach,1779 | 25 | 24 | 24 | 26 | 30 | 34 | 34 |
| 3 | Dovşankimilər- Lagomorpha Brandt, 1855 | 1 | 1 | 2 | 1 | 2 | 2 | 2 |
| 4 | Gəmiricilər-Rodentia Bowdich, 1812 | 27 | 28 | 31 | 30 | 37 | 37 | 37 |
| 5 | Yırtıcılar-Carnivora Bowdich, 1821 | 18 | 18 | 19 | 18 | 19 | 19 | 19 |
| 6 | Kürəkayaqlılar-Pinnipedia Illiger, 1811 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 |
| 7 | Gütdırnaqlılar – Artiodaktyla Owen, 1848 | 8 | 8 | 10 | 8 | 8 | 8 | 8 |
| 8 | Gətirilmə növlər | 6 | 6 | | 10 | | | |
| | Növlərin cəmi | 93+(introduksiya edilmiş 6)=99 | 92+(introduksiya edilmiş 6)=98 | 99, o cüm-lədən,introduksiya olunmuş | 97+(introduk-siya edilmiş 10) =107 | 110 intro-duksiya olunmuş növlər nəzərə alınmışdır | 114 introduksiya olunmuş növlər nəzərə alınmışdır | 115 introduksiya olunmuş növlər nəzərə alınmışdır |

Azərbaycanın ərazisi geoloji keçmişinə və coğrafi relyefinə görə digər ərazilərə nisbətən daha çox

D.K.Vereşaqinə görə, Samux-Dəvəçi və Qonaqkənd təbii-coğrafi rayonlarında Radde qonurdişi, xırda qonurdiş, uzunquyruq ağdiş, ağqarın ağdiş, xırda ağdiş, ağdöş kirpi, qulaqlı kirpi növləri yayılmışdır.

1966-cı ildə X.M.Ələkbərov [4] tərəfindən Qarabağ ərazisində tədqiqat işləri aparılmış və bu ərazi üçün 61 növ qeydə alınmışdır. Onun Qarabağ ərazisi üçün göstərdiyi həşəratyeyənlər növlərindən Samur-Dəvəçi, Qonaqkənd təbii-coğrafi rayonlarında ağdöş və qulaqlı kirpi, Radde qonurdişi, Şelkovnikov su qonurdişi (monoqrafiyada *Neomys fodies* adı ilə göstərilib), uzunquyruq ağdiş (monoqrafiyada *Crocidura russula* adı ilə göstərilib) növlərinə rast gəlinir.

Ə.G.Qoşunəliyevin [5] tədqiqatları göstərir ki, Azərbaycan ərazisində 10 yereşən növü (Qafqaz qonurdişi-*Sorex caucasicus* (Syn. *S.satunini* Ognev, 1922), Radde qonurdişi-*S.Raddei* Satunin, 1895, kiçik Qafqaz qonurdişi (indiki adı Xırda qonurdiş)-*S.minutus* L., 1758, cırtdan ağdiş-*Suncus etruscus* Savii, 1822, xırda ağdiş-Crocidura suaveolens Pall.1811, ağqarın ağdiş-Crocidura leucodon Herm., 1780, uzunquyruq ağdiş-Crocidura gueldenstaedti Pallas, 1811, Fars (İran) ağdişi-*Cr.persica* Thomas, 1907, Şərqi İran ağdişi-*Cr.zarudnyi* Ognev, 1928, Şelkovnikovi su qonurdişi-*Neomus schelkovnikov*i Satunin, 1915 (Syn. *N.teres* Miller, 1908)) yayılmışdır, (1987). Fars (İran) ağdişi-*Cr.persica* Thomas, 1907, Şərqi İran ağdişi-*Cr.zarudnyi* Ognev, 1928 Xəzər ağdişi-Crocidura caspicus Pallas, 1811 növü ilə əvəz olunub.

Qafqaz qonurdişi Quba, Qusar rayonlarında, Radde qonurdişi, xırda ağdiş ilə eyni landşaft və biotoplarda (dağ meşələrində, çayətrafı kolluqlarda, çaylara yaxın daşlıqlarda), uzunquyruq ağdiş-*Cr.gueldenstaedtii* Pallas, 1811, ağqarın ağdiş-*Cr.leucodon* Hermann, 1780 Azərbaycanda bütün ərazilərdə qeydə alınır. Düzənliklərdə məskunlaşmağa üstünlük verir (1942). Meşələrdə, meşə-çöllərində, çöllərdə, kolluqlarda və qamışlıqlarda məskunlaşmağa üstünlük verir. Şelkovnikovi su qonurdişi çayların ətrafında yayılaraq əsasən çay hevanları ilə qidalanır.

Tədqiqat ərazisində D.K.Vereşaqinə [2] görə, həşəratyeyənlərin 7, Ə.G.Qoşunəliyevə [5] görə, yereşənlərin 5 növü yayılmışdır.

1942-ci ildən başlayaraq, hal-hazıra qədər müxtəlif tədqiqatçılar tərəfindən respublikamızda Həşəratyeyənlərə aid olan 25-dən çox növ yazılmışdır. Növlərin bəziləri sistematikadan çıxarılmış, yeni növlər daxil edilmişdir. Hal-hazırda teriofaunaya 14 həşəratyeyən növ daxil edilir. Onlardan tədqiqat ərazisində 8 növ (ağdöş kirpi, qulaqlı kirpi, Qafqaz qonurdişi, xırda ağdiş, uzunquyruq ağdiş, Radde qonurdişi, ağqarın ağdiş, şelkovnikovi su qonurdişi) müəyyən olunmuşdur.

Azərbaycanda 1942-ci ildən başlayaraq, müxtəlif illərdə yazılmış yarasa növlərinin növ sayı analiz edilmişdir. 1942-ci ildə Azərbaycan ərazisində müəyyən edilən 25 yarasa növünün 4 növü (Qafqaz yarasası-*Amblyotus caucasicus* Sat., 1901; Nilson yarasası-*Amblyotus nilssoni* Keys. et Blasius.,1839; Oqnev yarasası-*Eptesicus ognevi* Bobrinskoi, 1935=Bobrin yarasası-*Eptesicus bobrinskoi* Kuzyakin, 1935; Enliqulaq Asiya yarasası-*Barbastella caspica Sat.*) respublikanın yarasa sistematikasından çıxarılsa da, sonradan sonuncu iki növ 2020-ci ildə yenidən Azərbaycanın xireptofaunasına daxil edilmişdir. Müasir dövrümüzə qədər yarasaların 40-dan çox növü yazılmış, ildən-ilə daim növ tərkibi dəyişilmişdir. Hal-hazırda Azərbaycan ərazisində 34 yarasa növünün olduğu göstərilir.

Ədəbiyyat məlumatlarına və tərəfimizdən aparılan tədqiqatlara əsasən, hal-hazırda tədqiqat ərazisində 22 yarasa növünün yayılması ehtimal olunur, kiçik nalburun-Şabran, Kuzun, Söhüb ərazilərində qeydə alınmışdır. Hər üç ərazidə onlar tək-tək fərdlər kimi qeydə alınmışdır, sıxlığı az olub, 1 $km^2$–də 1-2 fərd ehtimal olunur. Blazius nalburunu-*Rhinolophus blasii* Peters, 1866 tədqiqat ərazisinə yaxın ərazilərdə yayılmasına baxmayaraq, onun tədqiqat ərazisində yayılması üçün şərait mövcuddur. 2000-2004-cü illərdə yarasa növləri sırasına 4 növ yarasa (kiçik şəbpərə, dağ palazqulağı, meşə gecə şəbpərəsi, çöl gecə şəbpərəsi) daxil edilmiş və 2010-cu ildə yarasa növlərinin sayı 30 növə qədər artmışdır. 2017-ci ildə yarasaların sayı 34 növə çatmışdır. Faunamıza Anadolu uzunqanad yarasası, şaubi gecə şəbpərəsi, alkado gecə şəbpərəsi, Nepal gecə şəbpərəsi yarasa növləri daxil edilmişdir. Yarasa növləri müxtəlif ekoloji şəraitə malik lanşaftlarda yayıla bilirlər. Onları meşələrdə (düzənlik, dağətəyi və dağ-meşələrində), arid iqlim tipinə (düzənlik dağətəyi və dağ çöllərində) malik ərazilərdə qeydə alınır. Bəzi növləri müxtəlif su hövzələri ilə bağlıdır (nohurlar, su anbarları, çaylar və s.), burada heyvanlar sürətlə uçmaqla suyun səthinə toxunaraq cücüləri ovlayırlar [6]. M.C.Fattayev [7] tədqiqat ərazisində Kiçik nalburun-*Rhinolophus hipposideros* Borkhausen, 1797 (1974-1975-ci illərdə Quba rayonunun Nüvədi kəndi) Dağ gönlücəsi-*Eptesicus seratinus* Schreber, 1774 (1974-1975-ci ildə Xaçmaz şəhərində köhnə evlərin dam örtüyündə 24 fərd), Küli şəbpərəsi-*Pipistrellus kuhlii* Kuhl, 1817 (1973-1975-ci ildə Xaçmaz rayonu, Qadımalıqışlaq kəndi), Natuzius şəbpərəsi-*Pipistrellus nathusii* Keyserling et Blazius, 1839 (1975-1976-cı illərdə Xaçmaz rayonu, Nabran kəndi), Asiya enliqulağı-*Barbastella caspica* Satunin, 1908 (1974, 1976-cı illərdə Xaçmaz rayonu) növlərini karioloji metodlarla tədqiq etmişdir. Bəzi növlərin adları 2020-ci ildə olan adlarla göstərilib.

M.C.Fattayev [7] bu ərazidə Kiçik nalburun, dağ gönlücəsi, Küli şəbpərəsi, natuzius şəbpərəsi, Asiya enliqulağı növlərini karioloji metodlarla tədqiq etmişdir.

Ədəbiyyat məlumatlarına əsasən, tədqiqat ərazisində oturaq, lakin uzun məsafələrə miqrasiya edən iki (Adi ikirəng gönlücə-*Vespertilio murinus* 900 km, bəzən isə 1440 km-ə qədər miqrasiya etmək qabiliyyətinə (əsasən Xəzəryanı sahil boyunca miqrasiya edirlər), (üçrəng gecə şəbpərəsi-*Myotis emarginatus*) nisbi oturaq yarasalara daxil edilsə də, onun yay və qış dövrləri arasında məsafələri bir-birindən 45 km və hətta bəzən 105 km aralı olur. Azərbaycanda dəniz səviyyəsindən 1000 m-ədək hündürlüklərdə bütün təbii rayonlarda tapılmışdır. Daha çox dağətəyi ərazilərdə yayılmışdır. Arid və meşə landşaftlarında dominantlıq təşkil edir (Ancaq yaz-yay və payız mövsümlərində qeyd edilmişdir), miqrasiya edən Kürən axşam yarasası-*Nyctalus noctula* növünün uçuş məsafəsi 750 km-dən, 2347 km-ə qədər olur. Qışlamaq üçün mərkəzi qara torpağın şərq hissəsindən (Voronej vilayəti) Qafqaz və Krıma uçurlar. Kürən axşam yarasası Azərbaycanın, əsasən, Şimal hissəsində, məhz Böyük və Kiçik Qafqaz hissəsində, Qazax-Gəncə düzənliyində, Kür-Araz və Samur-Dəvəçi ovalıqlarında qeydə alınmışdır. Yemlənməyə çıxmış heyvanlar dəfələrlə Talışın dağətəyi və orta dağlıq ərazilərində müşahidə olunmuşdur. D.s.-dən 1000 m-ədək hündürluklərdə qeydə alınmışdır.

Miqrasiya edən növlərdən biri kiçik nalburun qışlama yerlərindən 20-30 km və bəzən isə 180 km kənara uça bilir. Belə hesab edilir ki, yarasa növləri sığınacaqlardan 2-3 km, bəzən isə 10 km-lərlə məsafədəki ağaclar, kolluqlar, çəmənliklər, yarımsəhralar üzərindəki hörümçəklər, həşəratların müxtəlif dəstələrinə (böcəklər, pulcuqqanadlılar və ya kəpənəklər, düzqanadlılar, ikiqanadlılar və s.) daxil olan növlərlə qidalanırlar.

Miqrasiya edən növlərdən üçü (Adi ikirəng gönlücə, üçrəng gecə şəbpərəsi, kürən axşam yarasası) tədqiqat ərazisində rast gəlinir. M.C.Fattayev [7] bu ərazidə Kiçik nalburun, dağ gönlücəsi, Küli şəbpərəsi, natuzius şəbpərəsi, Asiya enliqulağı növlərini karioloji metodlarla tədqiq etmişdir. Apardığımız tədqiqatlar göstərir ki, bu ərazidə 22 növün yayıldığı ehtimal olunur. Onlardan tədqiqat ərazisində Kiçik nalburun, dağ gönlücəsi, Küli şəbpərəsi, natuzius şəbpərəsi, Asiya enliqulağı, miqrasiya edən növlərdən adi ikirəng gönlücə, üçrəng gecə şəbpərəsi, kürən axşam yarasası növlərinə rast gəlinir.

1942-ci ildə faunamıza 99 məməli növü daxil edilsə də, kataloqda göstərilən növlərdən 12%-dən çoxu hal-hazırda Azərbaycan faunasında qeydə alınmır. 1978-ci ildə Azərbaycan faunasına 99 məməli növü daxil edilmişdir. 1978-ci ildə daxil edilmiş növlərdən hal-hazırda 10 növ Azərbaycan faunasında qeydə alınmır. 2000-2004, 2010, 2017-ci illərdə məməlilərin sistematikasına daxil olan növlərin 2020-ci ildə həm sayı artmış, həm də qismən də olsa bəzi növlərin adları dəyişilmişdir. 2020-ci ildə iki dovşan növü göstərilir. Onlardan bu ərazidə yalnız boz dovşana rast gəlinir. 2020-ci ildə gəmiricilər dəstəsinə 37 növ daxil edilməsinə baxmayaraq, tədqiq olunan ərazidə 22 gəmirici növü qeydə alınır.

1942-ci ildə yırtıcılar dəstəsinə 22 yırtıcı növü daxil edilmişdir. Onlardan 4 növ (Amerika yenotu, yenot iti, Amerika norkası, skuns) gətirilmə növlərdir. D.K.Vereşaqinin kataloqunda [2] 18 fauna və gətirilmiş, iqlimləşmiş Amerika yenotu növü göstərilir. 2020-ci ildə yırtıcıların 19 növü qeyd olunur. 1942-ci ildə qeyd olunan gətirilmə növlərdən yenot iti, Amerika norkası, skuns iqlimləşməyə məruz qalmadığı üçün faunadan çıxarılmışdır. Fauna növü-pələng tamamilə məhv olduğu üçün müasir sistematikaya daxil edilmir. Pələng növü əvəzinə bu zamana qədər Azərbaycan faunası üçün məlum olmayan qara quyruq gəlincik daxil edilmişdir. Beləliklə, 2020-ci ildə sistematikaya 19 yırtıcı növü daxil edilmişdir. Bu ərazidə Canavar cinsindən boz canavar, adi çaqqal, Tülkü cinsindən adi tülkü, Ayı cinsindən qonur ayı, Yenot cinsindən Amerika yenotu və ya adi yenot, Gəlincik cinsindən adi gəlincik, Dələ cinsindən meşə dələsi, Porsuq cinsindən adi porsuq, Pişik cinsindən meşə pişiyi, çöl pişiyi, Vaşaq cinsindən vaşaq rast gəlinir.

Sorğu apardığımız həmsöhbətimiz bildirir ki, o, burada bəbirə rast gəldiyini desə də, ona heç kim inanmır. Bəbirin burada rast gəlinməsinə şübhə ilə yanaşırıq. Belə hesab edirik ki, buraya bəbir təsadüfən gələ bilər. Belə hesab edilir ki, bəbir təsadüfən 1929-cu ildə Muğanda yerləşən Xırmandalı kəndində (Vereşaqin) və nadir hallarda 1946-cı ildə Abşeron ərazisində də rast gəlinmişdir [8]. Deyilənləri ümumiləşdirərək belə nəticəyə gəlmək olar ki, bəbir növü istisna olmaqla, tədqiqat ərazisində yırtıcıların 9 cinsinə daxil olan 11 növü yayılmışdır. Xızı royonunun meşələrinə

reablitasiya mərkəzindən 6 ayı fərdi buraxılmışdır. Sorğular göstərir ki, yırtıcılardan meşə dələsi, əsasən, gündüz, boz canavar, adi tülkü, gecə və gündüz, adi çaqqal, Amerika yenotu, adi gəlincik, meşə dələsi, adi porsuq, çöl pişiyi, meşə pişiyi, vaşaq gecələr aktiv olurlar. 2019-2020-ci illərdə Şabran rayonu ərazisində taxtakörpü ətrafında 4 fərddən ibarət bir canavar ailəsinin və tək yaşayan bir canavar fərdinin dağlardan düzənliyə hərəkəti qeydə alınmışdır. Şabran rayonunun Rəhimli kənd sakini ilə aparılan sorğu zamanı dağlarda bir canavar ailəsinin olduğu məlumatı alınmışdır.

Tədqiq olunan ərazidə zolaqlı kaftar, qaraquyruq gəlincik, safsar, daşlıq dələsi, çay samuru, qamışlıq pişiyinə rast gəlinmir. Manul pişiyi Muğan və Orta Araz Vilayətində rast gəlinir.

Tədqiqat ərazisində Cütdırnaqlılar dəstəsinə aid olan növlərdən cüyürə və qabana (çöl donuzu) rast gəlinir. Həmsöhbətimizin fikrincə, Xızı meşələrində ağ, boz və ala-bula rəngli donuzlar yayılmışdır. Meşələrdə əvvəllər nəcib maral olsa da, hal-hazırda onlara rast gəlinmir. Lakin hasarlanmış sahələrdə gətirilmə marallar saxlanılır. Burada köpgərə və Şərqi Qafqaz turuna rast gəlinmir.

Beləliklə, Qonaqkənd və Samur-Dəvəçi rayonunda məməlilərin 6 dəstəsinə (Həşəratyeyənlər-İnsectivora, Yarasalar-Chiroptera, Dovşankimilər-Lagomorpha, Gəmiricilər-Rodentia, Yırtıcılar-Carnivora, Cütdırnaqlılar-Artiodactyla) daxil olan növlər müəyyən olunmuşdur. Tədqiqat ərazisində Həşəratyeyənlərə aid olan 25-dən çox növ yayılmışdır. Hal-hazırda teriofaunaya 14 həşəratyeyən növü daxil edilir. Onlardan tədqiqat ərazisində 8 növ (ağdöş kirpi, qulaqlı kirpi, Qafqaz qonurdişi, xırda ağdiş, uzunquyruq ağdiş, Radde qonurdişi, ağqarın ağdiş, şelkovnikovi su qonurdişi) müəyyən olunur. Yarasalar dəstəsindən 22 növün yayılması ehtimal olunur. Yarasaların 40-dan çox növü yayılmışdır. Teriofaunamıza yarasaların 34 növü daxil edilir. Tədqiqat ərazisində 22 növün yayıldığı ehtimal olunur. Onlardan Kiçik nalburun, dağ gönlücəsi, Küli şəbpərəsi, natuzius şəbpərəsi, Asiya enliqulağı, kiçik nalburun, miqrasiya edən növlərdən adi ikirəng gönlücə, üçrəng gecə şəbpərəsi, kürən axşam yarasası tədqiqat ərazisində rast gəlinir. Dovşankimilər dəstəsindən boz dovşan, Gəmiricilər dəstəsindən 22 növ bu ərazidə məskunlaşır. Yırtıcılar dəstəsinin 9 cinsinə daxil olan 11 növünə rast gəlinir. Cütdırnaqlılar dəstəsinin 2 növü məskunlaşır.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının coğrafiyası. I cild. Fiziki coğrafiya / Bakı, Avropa nəşriyyatı, 2014, 530 səh.
2. Верещагии Н.К. Каталог зверей Азербайджаиа / Баку: 1942, изд., АзФАН, 95 стр.
3. Azərbaycan faunasının taksonomik spektri (onurğalılar) / Bakı, "Elm və təhsil", 2020, 143 səh.
4. Алекиеров Х.М. Млекоиитающие юго-заиадиого Азербайджаиа. Баку: 1966, изд. АН Азерб. ССР, 148 стр.
5. Гошуиалиев А.Г. Землеройки (SORICIDAE) Азербайджаиа // Автореферат диссертации иа соискаиие учеиой стеиеии каидидата биологических иаук. Киев, 1990, 22 стр.
6. Quliyev Q.N., Həsənov N.Ə., İbrahimli A.Ş., Haxıyev A.R. Samur-Dəvəçi, Qonaqkənd Təbii-Coğrafi rayonlarında Yarasaların (CHIROPTERA BLUMEN BACH, 1779) növ tərkibi / Akademik C.Ə.Əliyevin 90 illik yubileyinə həsr olunmuş konfransının materialları-Gəncə şəhəri, Atatürk prospekti, 450, səh. 78-79.
7. Fattayev M.C. Сравиительиая кариология иекоторых рукокрылых Азербайджаиа (цитотаксоиомический и эволюциоииый асиекты) // Автореферат диссертации иа соискаиие учеиой стеиеии каидидата биологических иаук. Баку, 1978, 24 стр.
8. Животиый мир Азербайджаиа. Баку: 1951, изд-во АН Азербайджаиской ССР, 601 стр.